# Yeni Azərbaycan Partiyasının ilk təşkilatlarında

## Mərkəzi xəstəxana

***Yeni Azərbaycan Partiyası (YAP) Qəbələ Rayon Təşkilatının IX konfransına hazırlıq məqsədilə ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncaqları keçirilmişdir. Növbəti hesabat-seçki yığıncağı rayon mərkəzi xəstəxanası ərazi ilk partiya təşkilatında olub.***

Yığıncaqda ilk partiya təşkilatının sədri Saleh Aslanov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, təşkilatın üzvləri rayonun ictimai-siyasi, mədəni həyatında yaxından iştirak edir, bütün siyasi kampaniyalarda, o cümlədən seçkilər və ümumxalq səsverməsi zamanı təbliğat-təşviqat kampaniyalarında xüsusi fəallıqları ilə seçilirlər.



Təşkilatın üzvü, xəstəxananın cərrahiyyə şöbəsinin müdiri Şirin Müştaqov, həkim Gülətay Əzizova, xəstəxananın baş həkimi Sabir Bayramov və başqaları çıxış edərək YAP-ın xalqın istəyi və dəstəyi ilə yaranmış partiya olduğunu qeyd ediblər.

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov tədbirdəki çıxışında bildirib ki, bu gün YAP ölkəmizin ən güclü siyasi qüvvəsidir. YAP-ın bu səviyyədə inkişafı və nüfuz qazanması məhz dahi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyevin, onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır.



Azərbaycanın 1969-cu ildə keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında bütün sosial-iqtisadi göstəricilərə görə geridə qalan respublika olduğunu qeyd edən Abil Ağasəfov diqqətə çatdırdı ki, Heydər Əliyev istər sovetlər dövründə, istərsə də müstəqillik illərində respublikamızda hakimiyyətdə olduğu müddətdə ölkədə ciddi islahatlar həyata keçirdi. Azərbaycanı dünyaya tanıtdı, parçalanmaq təhlükəsindən xilas etdi və vətənimizi bundan sonra da parlaq gələcəyə apara biləcək praqmatik liderə–İlham Əliyevə etibar etdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə, xüsusilə ordu quruculuğu sahəsində görülən işlərdən geniş bəhs edən sədr əminliyini ifadə edib ki, Azərbaycan bundan sonra da parlaq qələbələrə, böyük uğurlara imza atacaq. Bunun üçün hər birimiz fəal olmalı və xalqımızın etibarlı gələcəyi üçün ölkəmizdə formalaşmış ictimai-siyasi sabitliyi, xalq-iqtidar birliyini daim qorumalıyıq.

Yığıncaqda ilk partiya təşkilatının sədri, sədr müavini, eləcə də YAP Qəbələ rayon təşkilatının IX konfransına nümayəndələr seçilib.

***"Qəbələ".***

**Səhrab Umuyev.**

## Konserv zavodu

***Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının IX konfransına hazırlıqla bağlı növbəti yığıncaq "Gilan" Konserv zavodu ərazi ilk partiya təşkilatında keçirilib.***

İlk partiya təşkilatının sədri Elçin Məmmədov hesabat məruzəsində ərazi ilk təşkilatın yarandığı 2009-cu ildə sıralarında 25 nəfər partiya üzvünü birləşdirdiyini, hazırda isə onların sayının artaraq, əksəriyyəti gənclər olmaqla 169 nəfərə çatdığını qeyd edib.

İclasda Elçin Məmmədov yenidən ərazi ilk partiya təşkilatının sədri, partiyanın üç üzvü isə YAP Qəbələ Rayon Təşkilatının IX konfransına nümayəndə seçilib.

***"Qəbələ".***

## «ASAN xidmət» mərkəzi

***Qəbələ Regional "ASAN xidmət" Mərkəzində Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının yaradılması ilə bağlı toplantı keçirilmişdir.***

Toplantıda Qəbələ Regional "ASAN Xidmət" Mərkəzinin direktor müavini Murad Kərimov ilk partiya təşkilatının sədri, Vəsilə Rəfizadə isə sədrin müavini seçilmişdir. Murad Kərimov ona göstərilən etimada görə minnətdarlığını bildirmiş, bu etimadı öz işi və fəaliyyəti ilə doğruldacağını diqqətə çatdırmışdır.

Toplantıda Qəbələ Regional "ASAN Xidmət" Mərkəzinin ilk təşkilatından partiyanın rayon təşkilatının IX konfransına nümayəndələr seçilmişdir.

**Səhrab UMUYEV.**

***"Qəbələ".***

---

*Hər sözü bir ulduz, bir şəffaf almaz,*
*Mənalar dünyası qaranlıq deyil,*
*Bu böyük kitablar yaranır az-az,*
*Çünki ömürlükdür, bir anlıq deyil.*

Dahi şairimiz Səməd Vurğuna aid olan bu misralar kitabların nə qədər dəyərli olduğunu bir daha təsdiq edir. Kitab haqqında nə qədər danışsaq azdır. Hər vərəqində minbir xəzinə gizlənən, göz nuru, əl əməyi

## "Danışan" kitablar



ilə yazılıb insanı qaranlıq quyulardan işıqlı dünyaya çıxaran kitablar haqqında mərkəzi kitabxanada çoxsaylı sərgilərimiz və tədbirlərimiz olmuşdur. Bu gün isə daha rahat mənimsənilən, diskə köçürülmüş kitablar haqqında məlumat vermək istəyirəm. Belə ki, kitabxananın uşaq şöbəsinə yenicə "danışan" nağıllar(nağıl diskləri) daxil olmuşdur. Diskə köçürülmüş bu nağıllar məktəb yaşına çatmamış, kitab oxumağı bacarmayan uşaqlar üçün daha əlverişlidir.

Kitabxanamızda yaradılmış "Danışan" nağıllar adlı disk sərgisinə "Gülzar nənənin nağılları", "Dədə Qorqud dastanları", Azərbaycanda uşaqlar üçün çəkilən bədii və sənədli filimlər, Rafiq Yusifoğlunun "Çiçək yağışı", Səmagül Əliyevanın "Hərflərin söz çələngi", "Göyər səmənim, göyər", "Heyvanlar haqqında nağıllar", "Damda yaşayan Karlson" və. s bu tipli nağıl disklər daxildir. Sərgimiz il boyu davam edəcək. Balaca oxucularımızı nağıllara qulaq asmağa dəvət edirik.

**Ülkər QƏDİROVA,**
**mərkəzləşdirilmiş kitabxana sisteminin işçisi.**

---

# Peşə bayramlarını qeyd ediblər

***Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının beş illiyi ilə əlaqədar qurumun rayon təşkilatının əməkdaşları peşə bayramlarını qeyd ediblər.***

***Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, SHXÇDX rayon şöbəsinin kollektivi, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak edib.***



Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, ulu öndərin əziz xatirəsini ehtiramla yad edib.

Qəbələ Mədəniyyət Mərkəzində davam edən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra RİH başçısının birinci müavini Abil Ağasəfov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin bütün əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edib. Abil Ağasəfov çıxışında xidmətin ötən beş il ərzində gördüyü işləri müsbət qiymətləndirib. Qurumun əməkdaşlarına bundan sonra da öz xidməti işlərinə daha məsuliyyətlə yanaşmalarını, dövlətə, Vətənə şərəflə xidmət etmələrini tövsiyə edib. O, Prezident cənab İlham Əliyevin imzaladığı 13 fevral 2012-ci il tarixli Fərmana əsasən "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun tətbiqi ilə əlaqədar beş il əvvəl respublika və şəhər, rayon hərbi komissarlıqlarının ləğv edilərək onların bazasında Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və onun rayon, şəhər şöbələrinin yaradıldığını, aparılan islahatlarla əlaqədar bu sahədə çalışan hər kəsdən öz işinə məsuliyyətlə yanaşmasının tələb edildiyini diqqətə çatdırıb.

Mərasimdə SHXÇDX-nin Qəbələ Rayon Şöbəsinin rəisi, polkovnik-leytenant Niyaz Məmmədov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələr kimi, ordu quruculuğunun da uğurla aparıldığını, əsgərlərimizin və zabitlərimizin yüksək döyüş qabiliyyətinə malik olduğunu qeyd edib. Şöbə rəisi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsi tərəfindən gənclərə hərbi-vətənpərvərlik ruhunun aşılanması istiqamətində görülən işlərdən, onların müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığı sahəsində həyata keçirilən tədbirlərdən və bu sahədə rayon icra hakimiyyətinin onlara göstərdiyi köməklik nəticəsində əldə edilən nailiyyətlərdən ətraflı bəhs edib.

Tədbirdə Qarabağ Müharibəsi veteranı Rövşən Kərimov, şəhər 2 nömrəli tam orta məktəbin hərbi rəhbəri Rəfael Əbdürəhimov çıxış edərək xidmətin əməkdaşlarını peşə bayramı münasibətilə təbrik ediblər.

Yekunda Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının beş illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Xidmətin fəaliyyəti ilə əlaqədar hazırlanmış kitab rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfova təqdim olunub.

***"Qəbələ".***

**İlkin Vəlizadə.**